**Əməkhaqlarının düzgün göstərilməməsi pensiyaların ödənilməsində problemlərə səbəb olur və vergidən yayınmaya şərait yaradır**

Son illər ölkəmizin sığorta-pensiya sistemində bir sıra uğurlu islahatlar həyata keçirilmişdir. Aparılan islahatlara uyğun olaraq pensiyaların hesablanması qaydalarına dəyişikliklər edilmiş, vətəndaşların gələcəkdə alacağı pensiyanın məbləği əməkhaqqı əsasında deyil, iş stajına uyğun müəyyənləşdirilmişdir. Beləliklə də sığorta-pensiya sistemində yeni mərhələ başlanmışdır.

Prezident İlham Əliyevin 30 dekabr 2008-ci il tarixdə təsdiq etdiyi «2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı» sığorta-pensiya sisteminin təkmilləşdirilməsi sahəsində böyük əhəmiyyət kəsb edir. Dövlət Proqramına uyğun olaraq həyata keçirilən islahatlar sığorta-pensiya sistemində sığorta prinsiplərinin gücləndirilməsi, qeyri-sığorta xarakterli ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi kimi mühüm amilləri xarakterizə edir. Həmçinin, Dövlət Proqramında vətəndaşların 2006-cı il yanvarın 1-dən əvvəlki dövrdə qazanılmış pensiya hüquqlarının yeni əmək pensiyaları sisteminə daha sıx inteqrasiyasının təmini, məcburi dövlət sosial sığortasının təkmilləşdirilməsi və könüllü pensiya sığortasının inkişaf etdirilməsi, əmək pensiyalarının yığım komponentinin fəallaşdırılması, qeyri-dövlət pensiya institutlarının formalaşdırılması da öz əksini tapmışdır.

***Yaxşı pensiya üçün əmək müqaviləsi bağlanmalıdır***

Müxtəlif dövlət və özəl qurumlar tərəfindən aparılan araşdırmalarda işəgötürənlərin bir çox hallarda pensiya və sosial sığorta məsələlərinə laqeyd münasibət bəslədiyi ortaya çıxır. Bu məsələ xüsusilə özəl sektorda özünü daha qabarıq şəkildə büruzə verir. Ən ciddi problem isə işəgötürənlər tərəfindən işçilərlə əmək müqaviləsinin bağlanmamasıdır. İşçilərin qeydiyyatı və iş yerlərində ikili mühasibatlıqla bağlı problemlər birdəfəlik həllini tapmalıdır. Əks təqdirdə, bu amil işçilərin gələcək pensiyalarının necə hesablanacağı, ümumiyyətlə, onların staja, yaşa və ya hər hansı qanuni əsasa görə pensiyaya çıxacaqlarını sual altında qoyur. İşçilərin real gəlirlərinin leqallaşdırılması ilə bağlı inzibati tədbirlərin gücləndirilməsinə baxmayaraq, bu sahədə problemlər hələ də öz aktuallığını saxlayır.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) internet saytı mövcud problemlə bağlı maraqlı sorğular keçirmişdir. Sorğuların birində respondentlərdən «Sosial sığorta haqlarını ödəyərkən gəlirlərinizi düzgün göstərirsinizmi?» soruşulub. Sorğuda iştirak edən respondentlərin 51,6%-i sosial sığorta haqlarını ödəyərkən gəlirlərini düzgün göstərdiyini bildirib. Sorğuya qatılanların 38,1%-i «xeyr», 10,3%-i isə «ehtiyac görmürəm» cavabını verib. Ümumilikdə, respondentlərin sosial sığorta haqlarını ödəyərkən gəlirlərini düzgün göstərdiyini bildirənlərlə (51,6%) bunun əksini vurğulayanlar arasında fərq o qədər də böyük deyil. Deməli, bu haqda ciddi şəkildə düşünməyə dəyər.

Mövcud qanunvericiliyə görə, hər bir vətəndaş harada çalışmasından asılı olmayaraq, sosial sığorta olunmalı və buna məhz özü maraq göstərməlidir. Sosial sığorta olunma gəlir əldə edən bütün şəxslərin sosial risklərdən sığortalanması deməkdir. Ona görə də hər bir çalışan vətəndaş dövlət sosial müdafiə orqanlarında uçota durmalı və qanunla müəyyən edilmiş sosial sığorta normativlərinə uyğun olaraq vaxtlı-vaxtında sosial sığorta haqlarını ödəməlidir.

***Qanunvericilik işçilərin maraqlarının qorunması Üçün təminatçıdır***

İşçi işəgötürən tərəflə öhdəliklərin qanuni şəkildə rəsmiləşməsinə çalışmalıdır. İşçi bilməlidir ki, ona verilən rəsmi əməkhaqqı nə qədər çox olarsa, gələcəkdə daha yüksək pensiya alacaq. Başqa sözlə, mülkiyyət formasından asılı olmayaraq, işçi çalışdığı müəssisədə əməkhaqqının rəsmi sənədlərdə düzgün göstərilməsində maraqlı tərəf olmalıdır. Bu məsələ qanunda da öz əksini tapmışdır.

DSMF-dən aldığımız məlumata görə, «Əmək pensiyaları haqqında» yeni qanunun tətbiqi nəticəsində üçpilləli struktura, yəni baza, sığorta və yığım hissələrinə əsaslanan əmək pensiyaları sistemi fəaliyyətə başlamışdır. Hazırda hüquqi şəxs olan işəgötürən tərəfindən hesablanmış əmək-

haqqı fondunun 22%-i həcmində məcburi sosial sığorta haqqı ödənilir. Eyni zamanda, hər bir işçidən onlara hesablanmış əməkhaqqından 3% miqdarında sığorta haqqı tutulub işəgötürən tərəfindən DSMF-yə köçürülür.

Bəzi iqtisadçılar hesab edirlər ki, bu nisbət bir qədər dəyişilməlidir. Onların fikrincə, işçinin üzərinə düşən faizi bir qədər artırmaq, işəgötürənin faizini isə bir qədər azaltmaq zərurəti yaranmışdır. Bu addımı atmaqla işəgötürən tərəfi işçilərini və onların əmək haqlarını leqallaşdırmağa stimullaşdırmaq mümkündür. Təbii ki, bu, problemin həlli istiqamətində irəli sürülən təkliflərdən biridir və bir cox ekspertlərin qənaətinə görə, bununla sosial və vergi ödənişləri vaxtlı-vaxtında, düzgün yerinə yetirilmiş olar.

Ən optimal variant isə dövlət və ya özəl sektorda çalışmasından asılı olmayaraq, hər bir vətəndaşın əməkhaqqının dəqiq rəsmiləşdirilməsinə maraq göstərməsidir. Çünki «Əmək pensiyaları haqqında» Qanuna əsasən, pensiyalar fərdi uçot sisteminin məlumatları əsasında təyin olunmalıdır. Bu isə o deməkdir ki, fərdi uçot sisteminin tətbiqi təyin olunacaq pensiyanın məbləği sığorta stajı və ödənilmiş məcburi dövlət sosial sığorta haqları üzrə müəyyənləşəcək. İşçi əmək müqaviləsi bağlamaqda maraqlı olmalı, bunu işəgötürən tərəfdən tələb etməlidir. Əmək Məcəlləsinə əsasən, əmək müqaviləsi bağlanarkən işçi əmək kitabçasını, habelə şəxsiyyətini təsdiq edən sənədi və dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla) təqdim etməlidir. Bununla da hər bir işçi aldığı əməkhaqqının tam məbləğdə mühasibat sənədlərində göstərilməsinə çalışır ki, gələcəkdə sosial təminatına maliyyə ehtiyatı yaratmış olsun. Əgər belə olarsa, problem tez bir zamanda həllini tapa bilər. Gəlirlərin düzgün göstərilməsi isə DSMF ödənişlərinin yerinə yetirilməsi ilə yanaşı, vergi öhdəliklərinin də yerinə yetirilməsi deməkdir.

İşəgötürənlər isə bilməlidirlər ki, iş yerlərinin rəsmiləşdirilməməsi nəticəsində ciddi maliyyə sanksiyaları və inzibati cərimələrlə üzləşə bilərlər. Qeyd edək ki, Vergi Məcəlləsinin 58.10-cu maddəsinə görə, vergi orqanı tərəfindən əmək müqaviləsi bağlamadan işləri yerinə yetirdiyi aşkar edilən hər bir şəxs üzrə işəgötürənə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən isə Dövlət Əmək Müfəttişliyi tərəfindən əmək müqaviləsi bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işə cəlb edilməsinə görə - vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər isə 20000 manatdan 25000 manatadək cərimə edilirlər.

Rəşad SADIQOV